# AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

# BAKI DÖVLƏT UNİVERSİTETİ

**57.11.01 – İRAN DİLLƏRİ (URDU DİLİ)**
**ixtisası üzrə doktorluq imtahanı üçün**

# PROQRAM

**ŞƏRQŞÜNASLIQ FAKÜLTƏSİNİN**

**ELMİ ŞURASINDA TƏSDİQ OLUNMUŞDUR**

**PROTOKOL № 3, 27 fevral, 2020-ci il tarixli**

**Bakı - 2020**

**Şərqşünaslıq fakültəsinin dekanı:**

**professor Elxan Əzizov**

**Metodiki şuranın sədri:**
**professor Mehdi Kazımov**

**İran filologiyası kafedrasının müdiri:**

**professor Mehdi Kazımov**

**Tərtib edən:**

**Eldost İbrahimov**

# İ Z A H A T   V Ə R Ə Q İ

Hind yarımadasında tarix boyu müxtəlif xalqlar yaşamış və hal-hazırda da yaşamaqdadırlar. Region özünün çox zəngin etnik, mədəni, siyasi tarixi ilə birlikdə bu ərazidə fəaliyyət göstərən dillərin qarşılıqlı əlaqələrinin öyrənilməsi baxımından da maraqlı tədqiqat obyekti kimi diqqəti çəkir. Çox qədim zamanlardan özünün çoxdilliliyi ilə tədqiqatçıların diqqətini cəlb edən Hindistan ərazisində müxtəlif dil ailələrinə mənsub olan fəqli dillər təmsil olunmuşdur. Bu dillərdən biri də urdu dilidir. Dünyada mövcud olan digər dillər kimi, urdu dili də dildaxili və dilxarici faktorların təsiri ilə inkişaf etmiş və alınma sözlər hesabına zənginləşmişdir. Urdu dilinin lüğət tərkibinin zənginləşməsində əsasən fars mənşəli sözlərin olduqca böyük rolu olmuşdur.

Urdu dili əsasən XIII əsrdə yaranmağa başlamış və XVII əsrdə tam formalaşmışdır. Pakistan İslam

Respublikasının rəsmi dilidir. Hindistanda urdu dili 23 rəsmi dövlət dilindən biridir. Ölkədə təxminən 50 milyon nəfər bu dildə danışır. Dünyada 63,431,800 nəfər urdu dilini öz ana dili kimi istifadə edir, təxminən 150—200 milyon nəfər isə bu dildə danışa bilir. Pakistanda və Hindistanda çox yayılmışdır. Pakistanın rəsmi dillərindən biridir. Hindistanın bəzi bölgələrində də rəsmi dildir. Urduca Türk dillərində olan "ordu" sözündən törəmişdir. Buna görə də, bu dilə Ordu dili də deyilir. Urdu dili türk, ərəb, fars, sanskrit dillərindən alınmış sözlər hesabına leksik fondunu zənginləşdirmişdir. Urdu dili türk, sanskrit, ərəb və hind dilindən daha çox söz almışdır. Urdu əlifbası ərəb əlifbasına əsaslanır. Pakistanda urdu əsasən dili nəstəliq xətti ilə yazılır.

## P R O Q R A M I N   M Ə Z M U N U

Doktorantura pilləsi üçün mövcud fənn-ixtisas proqramı müasir urdu dilinin öyrənilməsi üüçn lazım olan bütün sahələri əhatə edir. Proqram öz vəzifəsini müvəffəqiyyətlə yerinə yetirə bilmək üçün müəyyən sistem quruluşuna malikdir. Proqrqmda ilk növbədə dilin varlığı üçün birinci şərt olan fonetik quruluşun nəzərdən keçirilməsinə yer ayrılmışdır. Həmcının urdu dilinin lüğət tərkibinin daim inkişaf və dəyişmədə olduğu nəzərə alınaraq leksikologiya sahəsinin təhlili üçün əlaqədar mövzular ayrılmışdır. Proqramda urdu dilinin qrammatikasının əsas şöbəsi olan morfologiya sahəsinin bütün əsas qanunlarlnı nəzərdən kecirmək üçün zəmin yaradılmışdır. Urdu dili qrammatikasının ən az tədqiq edilmiş şöbəsi olan sintaksis məsələlərinə geniş yer ayrılmış, sadə cümlə, təktərkibli və cüttərkibli cümlə növləri,

cümlənin baş və ikinci dərəcəli üzvlərinin dərin təhlili nəzərdə tutlmuşdur.

## Fonetika və qrafika

Fonemologiya və qrafemologiya. Urdu dilində ümumi fonetik qanunlar. Urdu ədəbi dilində dialektizm ünsürləri və onun fonetik və qrafik təzahür formaları. Hecaların əmələ gəlməsinin ümumi prinsipləri.

**Vurğu.** Heca və söz vurğusu. Sözlərdə vurğunun sabit və qeyri-sabitliyi. Vurğunun qrafikada göstərilməsi.Vurğu birləşməsi. Vurğu silsiləsi, ritm və intonasiya. Urdu dilində işlənmiş qrafik sistemlər. Urdu qrafikasında işlənmiş əsas xətt növləri.

Müasir urdu dilinin əlifba sistemi. Fonem və qrafem. Hərəkələr. Urdu dilində olan fars və ərəb sözlərinin işlənmələrinə görə hərflərin təsnifi. Urdu əlifbasında işlənən əlavə işarələr. Urdu əlifbasında

hərflərin düzülüş prinsipləri. Əbcəd. Transkripsiya. Onun növləri.

## Leksikologiya

Söz və məfhum. Söz və məna. Sözün mənaya görə təsnifi. Sözlərin bir-birinə münasibəti. Aktiv və passiv sözlər. Sözlərin məna qarşılaşdırılmasından doğan leksik-semantik kateqoriyalar.

Omonimlər. Omonimlərin əmələ gəlmə yolları.

Sinonimlər. Sinonimlərin əmələ gəlmə yolları. Doğma sözlərlə alınma sözlər arasında yaranan sinonimlik.

Antonimlər. Antonimlərin əmələ gəlmə yolları. Alınma və doğma sözlər arasında əmələ gələn antonimlik.

Urdu dilində yazılmış izahlı lüğətlərdə sinonim, antonim, omonim və omoqrafların verilmə üsulu.

Frazeoloji vahidlər. İdiomlar, zərbül-məsəllər, atalar sözləri. İdiomların əmələ gəlmə yolları.

Terminlər. Alınma sözlər. Sözün əsl lüğəvi və məcazi mənası. Fars və ərəb mənşəli sözlərinin urdu dilində məna dəyişiklikləri.

Ədəbi və danışıq dili. Ədəbi və danışıq dilinin leksik tərkibinin ümumi və fərqli cəhətləri.

Lüğətlərdən sərbəst istifadə üsulları və onların tərtib prinsipləri.

## Morfologiya

Sözlərin semantik-qrammatik təsnifi. Nitq hissələri. Nitq hissələrinin təsnifində əsas götürülən prinsiplər.

**İsim.** İsim anlayışı. İsimlərdə qrammatik kateqoriyaların icmalı. Cins kateqoriyası. İsmin məna kateqoriyaları. İsmin kəmiyyət kateqoriyaları. İsmin müəyyənlik və qeyri-müəyyənlik kateqoriyası. İsmin hal kateqoriyası. Urdu dilinin qrammatika kitablarında isim halları haqqında müxtəlif mülahizələr. Pakistan, Azərbaycan, Rusiya

və Avropa alimlərinin bu barədə fikirləri. İsimlərdə quruluş kateqoriyası. İsimlərdə kök, əsas və şəkilçi anlayışı. Morfemlər, onların əsas semantik-qrammatik xüsusiyyətləri. Düzəltmə və mürəkkəb isimlərdə omomorfemlik, sinomorfemlik və antomorfemlik hadisəsi. Substantivləşmə prosesi. Başqa nitq hissələrinin substantivləşməsi. Isimlə başqa nitq hissələri arasında olan fərqli və ümumi cəhətlər. İsimlərin sintaktik vəzifələri. Həmcins üzvlər. Xəbərin nominativ tərkibləri isim olduqda onun qrammatik kateqoriyalarının təzahür formasının xüsusiyyətləri.

**Sifət.** Sifət anlayışı. Sifətin məna kateqoriyaları. Sifətin dərəcələri. Sifətin quruluşu. Düzəltmə sifət əmələ gətirən şəkilçilər. Düzəltmə sifətlərin bəzi xüsusiyyətləri. Düzəltmə, mürəkkəb və əsli sifətlər arasında olan ümumi və fərqli cəhətlər. Düzəltmə sifət əmələ gətirən şəkilçilərin məna və funksiyaya görə qruplaşdırılması. Düzəltmə və və mürəkkəb

sifətlərdə dərəcə məsələsi. Sadə, düzəltmə və mürəkkəb sifətlərin dərəcələnməsi arasında olan fərqlər. Sadə, düzəltmə və mürəkkəb sifətlərlə isim, zərf və başqa nitq hissələrinin sadə, düzəltmə və mürəkkəb formaları arasında əlaqə. Sifətlərdə qrammatik, semantik və kəmiyyət kateqoriyası məsələsi. Sifətlərdə vurğu və durğu.

**Say.** Say haqqında ümumi məlumat. Sayların sintaktik xüsusiyyətləri. Sayların qrammatik kateqoriyaları. Sıra sayları. Kəsr sayları. Uzunluq, səth, həcm, istilik, ağırlıq ölçüləri. Sayların quruluşu. Numerativlər, zaman ölçüləri. Faizlər. Qeyri-müəyyən saylar.

**Əvəzlik**. Əvəzlik anlayışı. Əvəzliklərin nitq hissələri sistemində tutduğu mövqe. Əvəzliklərin təsnifi. Əvəzliklərin məna və funksiyaları.

İsim və sifət sual əvəzliklərində dərəcə kateqoriyalarının ifadə məsələsi. Əvəzliklərlə başqa nitq hissələri arasında əlaqə. Nisbət əvəzlikləri.

**Feil.** Feilin məna funksiyaları. Feilin formaları. Köməkçi və müstəqil fellər. Məna və funksiyaları. Felin zamanları. Feilin zamanları. Feillərdə şəxs kateqoriyası anlayışı. Feillərdə təsir kateqoriyası. Feillərdə növ kateqoriyası. Feillərdə quruluş kateqoriyası. Feillərin təsdiq və inkarı. Feilin şəkilləri. Feilin məna növləri. İntensiv feillər. Feili sifətlər. Feili sifətlərdə zaman, növ, məlum və məchulluq kateqoriyası. Feili sifətlərdə sifət və feilə məxsus cəhətlər. Feili bağlama. Feilin müxtəlif semantik-qrammatik kateqoriyalarının bir-birinə münasibəti, onların sintaktik vəzifələri, söz birləşmələri, söz silsilələri, cümlə əmələ gətirmək, hansı cümlə üzvü ola bilmək xüsusiyyəti. Feilin bütün semantik kateqoriyalarında vurğu məsələsi.

**Zərf.** Zərfin məna növləri. Zərflərdə dərəcə. Zərflərin cümlədə rolu. Zərf, sifət və isim arasında olan qarşılıqlı əlaqə. Azərbaycan, rus, avropa və rus dillərində yazılmış qrammatika kitablarında zərflərin təsnifatı. Zərf əmələ gətirən şəkilçilərin məna qrupları. İsim, sifət, zərf düzəldən şəkilçilərin, onların vasitəsilə əmələ gələn müvafiq nitq hissələrinin oxşar və fərqli cəhətləri. Zərflərin sintaktik vəzifələri. Zərflərdə vurğu.

**Qoşmalar.** Qoşma anlayışı. Qoşmaların əsas məna qrupları və sintaktik funksiyaları. Qoşmaların quruluşu. Sonqoşmalar. Ön qoşmalar.

**Bağlayıcılar.** Bağlayıcı anlayışı. Bağlayıcıların məna və qrammatik kateqoriyalarına görə təsnifatı və işlənmə yerləri. Bağlayıcıların quruluşu. Bağlayıcıların “tabeli” və “tabesiz” olaraq iki yerə bölünməsinin şərtiliyi. Tabesiz bağlayıcılarda məna münasibətləri. Tabeli bağlayıcıların sintaktik vəzifələri. Bağlayıcılarda vurğu və durğu.

**Ədatlar.** Ədat anlayışı. Urdu dilində ədatlar və onların funksiyaları. Sual ədatları. Qüvvətləndirici ədatlar. Ədatları başqa nitq hissələrindən ayıran xüsusiyyətlər. Ədatların cümlədə rolu.

**Nida.** Urdu dilində nidalar. Nidaların məna kateqoriyası. Nidaların cümlədə rolu. Nidalarda durğu işarələri.

**Modal sözlər.** Modal söz anlayışı. Modal sözlərin quruluşu. Modal sözlərin məna qrupları. Modal sözlərin leksik və qrammatik vasitələrlə yaradılması. Modal sözlərin sintaktik xüsusiyyətləri. Modal sözlərdə vurğu və durğu.

## Sintaksis

**Söz birləşmələri.** Söz birləşmələri anlayışı. Söz birləşmələrinin əmələ gəlmə yolları. Söz birləşmələrinin qrammatik əlaqəyə görə əmələ gəlmə yolları və onların tərkib quruluşuna görə növləri. Yanaşma üsulu ilə əmələ gələn söz

birləşmələri. Yanaşma üsulu ilə əmələ gələn söz silsilələri anlayışı. Sonqoşmalar vasitəsilə əmələ gələn söz silsilələri anlayışı. İzafət silsiləsi ilə bunların fərqi. Vasitəsiz və vasitəli rabitələr anlayışı. Tabesiz qrammatik əlaqə ilə əmələ gələn söz birləşmələri. Sabit və qeyri-sabit söz birləşmələri.Qarışıq əlaqəli söz silsilələri. Söz birləşmələrində kəmiyyət kateqoriyası. Söz birləşmələrində hal kateqoriyası. Söz birləşmələrində müəyyənlik və qeyri-müəyyənlik kateqoriyası.

**Söz silsiləsi.** Söz silsiləsi anlayışı. Söz silsiləsi ilə söz birləşməsi arasında ümumi və fərqli cəhətlər. Söz silsiləsinin əmələ gəlməsində tabeli və tabesiz qrammatik əlaqələrin rolu. Birləşmənin şəkil baxımından söz silsilələrinin təsnifi. Birləşmənin şəkli və qrammatik əlaqə arasında qarşılıqlı rabitə. Söz silsiləsində həmcins və müxtəlif cinsi əlaqələr. Söz silsilələrində

qrammatik əlaqələrin konfiqurasiyaları. Söz silsilələrində həmcins sözlər. Söz silsiləsi və tərkiblər problemi. Söz silsiləsində semantik-qrammatik kateqoriyalar, onların rəngarəngliyi.

**Cümlə.** Cümlə anlayışı. Cümlənin intonasiyaya görə növləri. Xəbərin hansı nitq hissəsi ilə ifadə edilməsinə görə cümlənin növləri. Cümlənin quruluşuna görə növləri. Sadə cümlənin növləri və onlarda mübtəda, xəbər, baş üzvlər və ikinci dərəcəli üzvlər. Sadə-geniş cümlələrdə cümlə üzvlərinin yeri. Sadə cümlənin baş üzvlərin iştirakına görə təsnifi. Sadə cümlədə şəxsin varlığı və yoxluğuna görə təsnifi. Əşya və hadisələrin varlığını, yoxluğunu, real və qedyri-reallığını ifadə baxımından sadə cümlənin təsnifi. Cümlə üzvləri, söz, söz birləşmələri və söz silsiləsi arasında olan qarşılıqlı əlaqə. Cümlənin əlavə üzvləri - əlavələr, ara sözlər, modal sözlər, xitablar, ara cümlələr.

**Mürəkkəb cümlə.** Tabesiz mürəkkəb cümlə anlayışı. Tabesiz mürəkkəb cümlənin icmalı. Tabeli mürəkkəb cümlə anlayışı. Tabeli mürəkkəb cümlələrin baş və budaq cümlələrində intonasiya. Baş və budaq cümləni təyin etmək üçün tətbiq edilən qrammatik və semantik üsullar. Tabeli mürəkkəb cümlələrdə baş və budaq cümlələrin hansı sadə cümlə ilə ifadı edilməsi məsələsi. Zərfliklənən baş cümlə və zərflik budaq cümlə, qarşılıqlı məna, quruluş və intonasiya əlaqələri. Zərfliklənən baş cümlə və zərflik budaq cümlələrinin növləri. Xəbərlənən baş və budaq cümlə, qarşılıqlı məna, quruluş və intonasiya əlaqələri. Xəbərlənən baş və xəbər budaq cümlə arasında qrammatik-semantik əlaqə yaradan vasitələr. Tabesiz və tabeli mürəkkəb cümlələr arasında qarşılıqlı əlaqə. Tabeli mürəkkəb cümlələrin urdu dilindən Azərbaycan dilinə tərcümə xüsusiyyətləri.

# Ədəbiyyat


Azərbaycan dilində

1. A.R.Kərimov “Urdu dilinin qrammatikası” Bakı, Adiloğlu 2010

İngilis dilində

2. Fahanq-i asfiyya,  II cild, Lahor, 2010
3. Annie David, Michael Maxwell, Evelyn Browne and nathanael Lynn “Urdu Morphology”, 2009

Urdu dilində

4. پروفیسور مسعود حسین خان: "تاریخ زبان اردو"
5. جمیل جالبی، "تاریخ ادب اردو، اردو زبان اور اس کے پھیلنے کے اسباب" لاہور، ۱۹۸۷
6. ڈاکٹر شوقت سبزواری: "اردو قواعد"
7. مولوی محمود رک العابدین: " گرامر آئین اردو"، پنجاب ۱۹۲٦